# دونیا آذه ربایجانلیلار کۆنگۆره سی نین مۆراجیعتی

## Dűnya Azərbaycanlılar kongurəsinin muraciəti

مۆوجۇد اۆلان نفت دمیری ـ دمیمزینه ساتیلماقدا، گلیرینی(اۆز دئیشلری ایله دئسک بیت المالي ) اۆز جیبلرینه تۆکوب ، دونیا تئرۆریزمینه خارجاماقدادیرلار .

جینایتکار رئژیمین بۇ جهالتی‌نین تاثیری مخصوُصن وطنیمیز آذربایجاندا آچیقجا گۆرولمکده دیر . آبري ـ سئچگین لیک وه مستملکه‌چیلیک سیاستلری نتیجه سینده بۇ گلیرلرده ن هئچ بیر شئي آذه ربایجانا عایید اۆلماماقدادیر . سۆزده قۆیۇلان سرمایالار وه خاریجي شیرکتلرین کارخانالاریدا فارس منطقه‌لرینده ایشه سالینماقدادیر .

آمما دونیامیزداکی گلیشمیش اینفۆرماسییا واسیطه‌لری نتیجه‌سینده رئژیمین ماهییتی ، سیياسي وه ایقتیصادی وضعییتی بوتون دونیا ایجتماعییتینه معلوُمدوُر . ایران دئییلن دۆسداقداکی میللتلرین آزادلیق مۆجادیلەسی‌نین گوجلنمه‌سی، عموُمی ناراضیلیق ، ایشسیزلیک ، اعتییاد ، باهالي لیق رئژیمه قارشي چئشیدلی اعتیراضلار شکلینده اۆزونو گۆستریر . اۆلکه بۆیوک بیر بۆحران ایچینده دیر . رئژیم اۆزونون یارتدیغي چتین لیکلر ایچینده بۆغۆلماقدیر . بوُنا گۆره‌ده هرجور حیله ، کله ک وه حۆقابازیغا ال آتماقدادیر .

تئرۆریست مۆلالار رئژیمی‌نین آذربایجان میللتینه وه اۆنوُن میللی آزادلیق مۆجادیله سینه قارشي سیاستلری ایکی تاکتیک ده اۆزونو گۆسترمکده دیر :

بیرینجیسی میللی حرکتین ایچینه سیزیب ( نفوُذ ائدیب) اۆنا تاثیر گۆسترمک وه پارچالاماق

ایکینجیسی ایستیقلالچي حرکاتا جور- به ـ جور تهمت لر وۆرۆب، بۇ حرکتی وه اۆنوُن قاباقجیل قۆوه لرینی ایزۆله ائدیب ، میللتله مۆناسیبتلرینی کسمه‌یه چالیشماق.

ائله بۇ سیاستین دوامي اۆلاراق ، نئجه دییه‌رلر « فئدرالیزم » شعارینی چۆخ تاسوفله اۆزوموزده ن اۆلان بعضی شخصیلرین دیلی ایله اۆرتایا آتیرلار . وه اۆز عالملرینده ایستیقلالچي حرکاتین قارشي سیندا آبري بیر آلتیرناتیو قۆیماغا چالیشیرلار .

آمما دونیا آذربایجانلیلار کۆنگۆرەسی‌نین فیکرینجه دونیانین ان قدیم تاریخینه مالیک اۆلان آذربایجان میللتی ، اۆز مستقیل ، باغلي سیز ، لاییق وه سئکۆلئر دۆولتینی قۆرما حاقینا مالیکدیر . بۇ مسئله بالنیز وه یالنیز ایستیقلالییت شعاري محتواسیندا مطرح اۆلمالیدیر . قۆندارما فئدرالیزم شعاري ایچینده آذربایجانین میللی مسئله سی حل اۆلان دئییلدیر .

تئهران رئژیمی ۲۵ ایلدیرکی، آذربایجانا قارشي ۵۷ ایل قۆلدۆر ریضا وه اۆغلۇ محمد ریضانین یۆلۇنۇ گئتمکده ، آذه ربایجان میللتینی اۆزلشدیریب، اۆز ایچینده اریدیب ، فارسلاشدیریب آسیمیله ائتمک اوچون بوتون تجروبه‌لرده ن یارارلانماغا چالیشیر . بۇنۇ رئژیمین آذربایجانا قارشي گوندەلیک سیياستینده گۆرمک مومکوندور .

چۆخ طبیعی دیرکی بعضی ایستیثمارچي دۆولتلر سۆزده منطقه‌ده دئمۆکراسیدان ، اینسان حاقلاریندان دانیش سالاردا ، مۆوجۇد سرحدلرین دمیشدیریلمه‌سی ایله راضیلاشا بیلمیرلر . اۆنلار عملده منطقه ده کی خالقلارین سرنوشت لرینی اۆز اللرینه آلیب، اۆز اۆلکه لرینده دئمۆکراتیک دۆولت یاراتمالارینا مانع چیلیک یارادیرلار . چونکو اۆنلار اوچون مرکزده اۆتۆرمۆش قۆللۆقچۇ دیکتاتۆر داها الوئریشلی دیر .

## Vahid Mũstəqil Azərbaycan Cəbhəsi
## Babək qalası 10 Tir 1381

چونکو بئله دیکتاتۆرلارلا داها باخشي آنلاشیب ، اۆز خئییرلرینه مۆقاویله‌لره قۆل چکه بیلیرلر . لاکین اۆنلارین ایستەیی نه اۆلۇرسا ـ اۆلسۇن ، میللتلرین ایراده سی قارشي سیندا دیزه چۆکمه‌یه مجبۇردۇرلار . آذربایجان میللتی بوتون بۇ مانعه لره وه چتین لیکلره باخمییاراق اۆز ایستیقلالییتینی الده ائتمک ، حقیقی دئمۆکراتیک حقۆق دۆولتینی قۆرماغا عزیملی دیر . بۇ حقیقتلری گۆره‌ن تئرۆریست مۆلالار رئژیمی میللتیمیزین آزادلیق وه مۆقاویمت سمبۆلۇ اۆلان اۆلۇ بابکی بیرگون دینسیز آدلاندیریب ، اۆ بیری گون اۆنۇ «ایران» دئییلەن یئره مال ائتمه‌یه چالیشیر . میللتیمیزین عموُمی عصیانیندان جاني تیتره مه‌یه دوشن رئژیم ،حتا بابکین دۆغۇم گونونو تۇتماقدان بئله قۆرخۇر . سۆیداشلاریمیزي اۆز امنیت جلادخاناسینا چاغیریب، قۆرخۇ ـ قدغه گلیر ، دۇسداغا آتیر ، بئله مراسیملره قاتیلمامارینی ایسته ییر . حتا اۆتانمازجاسینا اۆزگه‌لرین آدینا قۆندارما بیلدیریشلر یایاراق ، مراسیمین باشقا بیر تاریخه آتیلدیغیني ایره لی سورور . حتا اوزده‌ن ایراق بعضی اۆزوموزده‌ن اۆلانلاردااندا اۆز چیرکین هدفی اوچون یارارلانماق ایسته ییر .

دونیا آذروبایجانلیلار کۆنگۆرەسی دئمۆکراتیک بیر تشکیلات اۆلاراق ، آذربایجان میللتی‌نین میللی مۆباریزەسی‌نین اۆلکه خاریجینده دانیشان دیلی اۆلۇب، میللتیمیزین حاقلي سه‌سینی دونیا ایجتماعییتی‌نین ، اینسان وه آزادلیق سئوه‌ن شخصیلرین وه قۆرۇملارین قۇلاغینا چاتدیرماغي اۆزونه وظیفه بیلیر .

دونیا آذربایجانلیلار کۆنگۆرەسی مستملکه‌چی حاکمییتین باسقي، تئرۆر وه غئیر اینساني وه دیني عمللری‌نین مۆقابیلینده دئمۆکراتیک یۆللارلا میللی مۆباریزه میزین حقانییتینی دونیایا تانیتدیرماغا چالیشیر .

اۆلۇ بابک میللتیمیزین بۆیوک قهرماني وه معنوی دایاغیدیر . چونکو اۆز مۆباریزه سینده هئچ واخت سازیشه گئتمه میش، ساتیلمامیش، دوشمن قارشي سیندا پۆلاد ایراده‌لی سارسیلماز بیر قالایا چئوریلمیشدیر . وه دئمیشدیر :

« سارارلا ـ سارالا یاشاماقدانسا ، قیزارا ـ قیزارا اۆلمک داها شرفلیدیر ..» بیزده اۆنوُن نوه لری اۆلاراق، اۆنوُن یۆلوُنوُ گئتمه‌یه عزیملی‌ییک. یۆرۆلمادان، سارسیلمادان ، میللتیمیزین آند ایچمیش دوشمنلرینه باش ایمه‌دن، اۆنلارین قارشي سیندا کیچیلمه‌دن ، میللی مۆباریزه‌میزی قاباغا آپاریب ، تئۆرۆدا وه عملده اۆنۇ اینکیشاف ائتدیرمه‌لی‌ییک.

اۆلۇ بابک یمیز حیله وه دسیسه لرین قۆرباني اۆلمۇشدۇر . بۇ درسی‌ده اۆندان آلمالي ییق. دوشمنلریمیزین حیله‌لرینی ، تاکتیکلرینی ، اۆیۇنلارینی ایفشا ائتمه‌ی باجارمالي‌ییق.

بۇنا گۆره‌ده مقدس بابک قالاسیندا ، بۇ میعادگاهدا تۆپلاشماق، هر بیر وطنینی سئوه‌ن آذه ربایجانلي‌نین میللی بۆرجۇدۇر . وطنین هر بیر بۇجاغیندان اۆرایا تۆپلاشماق، دوشمنین پرۆوۆکاسییۆنلارینا گلمه‌مک ، عملده مستملکه چي شۆونیست تئهران رئژیمی‌نین بۇرنۇنۇ یئره سورتمک دئمکدیر .

عشق اۆلسۇن ایگیت آذه ربایجان میللتینه!

یاشاسین گونئي آذه ربایجان میللتی‌نین آزادلیق و ایستیقلالییت اۆغرۇندا مۆباریزه‌سی !

مهو اۆلسۇن ایرقچي تئرۆریست مۆلالار رئژیمی !

**دونیا آذه ربایجانلیلار کۆنگۆره سی**
**ایداره هئیتی**

# اۆلۇ بابکین دۆغۇم گونونون ایشتیراکچیلارینا

## Ulu babəkin Doğum gűnűnűn iştirakçılarına

**Ey Babəkin xələf oğul və qızları !**

**Atamız Babək bu səngərdə uzun illər yad istilaçılarına, onların istismarçi düşüncələrinə qarşı savaşdı , millətimizin namusunu , şərəfini qorumağa çalışdı. o Azadlıq və müstəqillik aşiqi idi. Bu eşqi yolunda canını verməkdən belə çəkinmədi. Bu gün bizim onun bu muqədəs səngərində toplaşmamız , bu muqədəs yeri ziyarət etməmiz , Babəkin həyat fəlsəfəsini qəbul edib, ondan muqavimət dərsi öyrəndiyimizi göstərir. Ondan öyrənmək , onun yolunu tutmaq , vətənimiz Azərbaycana hakim kəsilən Fars şovonizminə və Ermәni işğalçılarına qarşı savaşmaq deməkdir.**

**Ey Şərəfli Azərbaycan milləti !**

**Babəkimiz düşmənə baş əymədi , qul olmadı , millətini yadların boyunduruğu altında , fəlakət içində görmək istəmədi. Amma bugün haman vətən , haman Azərbaycan fars şovonizminin müstəmləkəsində , cinayətkar Ermənilərin işğalı altında inləyir , sızıldayır. millətimiz Fars şovonizminin əlində əsirdir. Ona həqarət edilir. Dili - Kültűrű , milli mənliyi yox edilir. özű - özűnə yadlaşdırmağa çalışılır. Varlığı danılır.**

**Əgər bizlər bugün bu muqədəs yerə , Babək qalasına , Babəkin hűzuruna toplaşmışıqsa , onun iyitliyindən yad edirsəksə, onun getdiyi yoluda getməliyik. Fars şovonizminə , işğalçı Ermənilərə qarşı baş qaldırıb , onları öz doğma vətənimiz Azərbaycandan qovub , Babəkin xələf evladları olduğumuzu əm\əldə isbat etməliyik.**

**Vahid müstəqil Azərbaycan cəbhəsi vətəndaşlarımızı öz dinindən , görűşűndən , əqidəsindən , soyundan asılı olmıyaraq vətənimiz Azərbaycanın Azadlığı , mũstəqilliyi , bağlısızlığı uğrunda , Babəkin həyat fəlsəfəsinə uyğun birləşməyə , ortaq dűşmana qarşı mucadiləyə çağırır. Mũstəmləkəçi fars şovonizminin əsarətində, boyunduruğunda yaşamaq , işğalçı erməni cinayətkarları qarşısında susmaq , alçalmaq , təhqir olmaq, Azərbaycan millətin űçűn , Babəkin evladları űçűn ardır. onun kimi ayağa qalxmalıyıq, lazim olursa canımızda fəda etmıliyik . əsarətdə yaşamaqdansa , babək demişkən: Dűşmən qarşısında qızara-qizara ölmək , sarala - sarala ölməkdən daəa şərəflidir- Bu savaş Azadlıq Mũstəqillik savaşıdır.**

**Eşq olsun millətin , vətənin namus və şərəfini qoruyanlara!**

**Eşq olsun ulu Babəkin yolunu tutanlara !**

**Eşq olsun bu muqədəs yerə yığışan sizlərə!**

**Yaşasın vahid , mũstəqil , bağlı olmayan azərbaycan !**